# 8 MART BAYRAMINIZ MÜBARƏK, ƏZİZ QADINLAR!


# İŞIQ

İctimai-siyasi qəzet

| Qəzet 1930-cu ildən çıxır | ŞİRVAN ŞƏHƏRİ | №5 (7339) | 8 mart 2014-cü il | şənbə | Qiymətі 20 qəp. |
|---|---|---|---|---|---|


## Şirvan şəhər İcra Hakimiyyətinin başçısı cənab M.T.Camalovun 8 Mart - Beynəlxalq Qadınlar günü münasibəti ilə

## Təbriki

**Hörmətli xanımlar!**
**Əziz analar və bacılar!**

Sizi Beynəlxalq Qadınlar günü münasibətilə ürəkdən təbrik edir, hər birinizə uzun ömür, möhkən cansağlığı, səadət dolu nailiyyətlər arzulayıram.

Dünya qadınlarının kişilərlə bərabər hüquqlara malik olmaq istəkləri ilk dəfə 1857-ci ildə mart ayının 8-də ABŞ-ın Nyu-York şəhərində toxuculuq sənayesində çalışan qadınlar tərəfindən ifadə olunmuşdur. 1910-cu ildə isə Danimarkanın Kopenhagen şəhərində keçirilən Qadın Sosialist İnternasionalının qurultayı Klara Setkinanın təklifi ilə hər il 8 mart gününü Dünya Qadınları günü kimi qeyd olunması barədə qərar qəbul etmişdir. Kopenhagen qərarından sonra 8 mart Beynəlxalq Qadınlar günü 1911-ci ildə ilk dəfə Avstriya, Danimarka, Almaniya və İsveçrədə qeyd edilmişdir. 1975-ci ildə isə BMT-nin qərarı ilə Beynəlxalq Qadınlar gününün qeyd olunması dünya dövlətlərinə tövsiyə olunmuşdur. 8 mart Azərbaycanda ülvü varlıq olan qadına məhəbbət və ehtiramı ifadə edən bayram kimi geniş qeyd edilir. Şərqdə ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyəti dövründə seçib-seçilmək hüququ qazanan qadınlar ölkəmizin mədəni, iqtisadi və siyasi həyatında həmişə yaxından iştirak etmişlər.

Görkəmli qadın şəxsiyyətlərimizin ləyaqət və müdrikliyinin daşıyıcıları olan müasir Azərbaycan qadınları öz dərin zəkaları və tükənməz daxili potensialları ilə xalqa və cəmiyyətə fədakarcasına xidmət edirlər.

Sağlığında millətimizin sağlamlığı keşiyində fədakarcasına çalışan görkəmli həkim, alim, akademik Zərifə xanım Əliyeva, şərqşünaslıq elmimizə dəyərli töhfələr vermiş Aidə xanım İmanquliyeva bu gün də qədirbilən xalqımız tərəfindən minnətdarlıq duyğuları ilə xatırlanır. Onlar, eləcə də onların müasirləri olmuş digər görkəmli qadınlarımız özlərinin şərəfli işləri ilə adlarını xalqımızın tarixinə qızıl hərflərlə yazmışlar.

Qadınların fədakar əməyini, cəmiyyətdə rolunu daim yüksək qiymənləndirən ulu öndər Heydər Əliyev onlara göstərilən diqqət və qayğını dövlət siyasəti səviyyəsinə qaldırmışdır. Onların rəhbər vəzifələrə irəli çəkilməsinə, hakimiyyətin bütün strukturlarında təmsil olunmalarına və ictimai-siyasi həyatda fəal iştiraklarına geniş imkanlar və hərtərəfli şərait yaratmışdır.

Ümummilli lider Heydər Əliyevin bu siyasəti möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən də layiqincə davam etdirilir. Qadınlara böyük ehtimad göstərilir. Onlar dövlət orqanlarında, parlamentdə, bələdiyyə qurumlarında, ictimai-siyasi təşkilatlarda, təhsil, elm, mədəniyyət, səhiyyə və digər xidmət sahələrində layiqincə təmsil olunurlar.

Müstəqil Azərbaycanın qazandığı bütün böyük uğurlarda qadınlarımızın misilsiz xidmətləri vardır. Respublikamızın hər yerində gedən abadlıq, quruculuq işlərində qadınlar çox yaxından iştirak edir. Ölkəmizin ictimai-siyasi, sosial-iqtisadi, elmi-mədəni proseslərində fəal iştirak edərək vətənimizin yüksəlişinə öz töhfələrini verirlər.

Son illər Azərbaycan qadınlarının respublikamızda və xarici ölkələrdə keçirilən beynəlxalq tədbirlərdə fəallığı özünü daha çox sülhün, əmin-amanlığın, tolerantlığın və mədəniyyətlərarası dialoqun formalaşmasında büruzə verir.

Milli-mənəvi dəyərlərimizin, adət-ənənələrimizin, mədəniyyətimizin və incəsənətimizin dünya miqyasında tanınmasında Azərbaycan qadınlarının rolu gündən-günə artır. Bu işdə Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, millət vəkili Mehriban xanım Əliyevanın yorulmaz fəaliyyəti Azərbaycan qadınının beynəlxalq aləmdə yüksək imicini formalaşdırmışdır.

Respublikamızın hər yerində olduğu kimi, Şirvan şəhərində də qadınların hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu prosesində fəal iştirakına xüsusi diqqət və qayğı göstərilmiş, onların ictimai-siyasi fəallıqlarına münbit şərait yaradılmışdır. Bu gün şəhərimizdə elə bir sahə yoxdur ki, orada qadınlar çalışmasın. Tapşırılan işin öhdəsindən layiqincə gələn qadınlarımız müstəqil dövlətimizə, həyat yoldaşlarına sədaqətlik nümunələri göstərirlər.

**Əziz qadınlar!**

Azərbaycan xanımının parlaq siması olan Mehriban xanım Əliyeva başda olmaqla Sizin hər birinizi bu bayram münasibətilə bir daha ürəkdən təbrik edirəm. Sizə ailə səadəti, xoşbəxtlik arzu edirəm. Müstəqil dövlətimizin daha da çiçəklənməsi yolunda uğurlar diləyirəm.

**Bayramınız mübarək olsun.**

*M.T.Camalov, Şirvan şəhər İcra Hakimiyyətinin başçısı*

*CƏFƏR CABBARLI*

## ANA

Əgər bütün bəşəriyyət ədüvvi-canım ola,
Ürək süqut eləməz aldığı mətanətdən.
Ricavü xövfə məkan verməzəm gər alimlər
Min il də vəz edələr dəhşəti- qiyamətdən.

Pələnglər tuta dövrüm, çəkinmərəm əsla,
Və ya ki, vəd edələr dövləti-cahanı mənə
Ki, bir kəsə baş əyib iczimi bəyan eləyim,
Əyilmərəm nə ki er, versələr səmanı mənə.

Yanımda gər dura cəllad əlində şəmşiri,
Ölüm gücilə mənə hökm edə olum təslim,
Əyilmərəm enə haşa! Ölüm nədir ki, onun
Gücilə xalqa həqiranə eyləyim təzim?

Cahanda yox elə bir qüvvə baş əyim ona mən.
Fəqət nə güclü, zəif bir vücud var, yahu,
Ki, hazıram yıxılıb xaki-payinə hər gün,
Öpüm ayağını icz ilə. Kimdir o? Nədir o?

Ana! Ana!.. O adın qarşısında bir qul tək
Həmişə səcdədə olmaq mənə fəxarətdir;
Onun əliylə bəla bəhrinə yuvarlansam,
Enə xəyal edərəm bəzmi-istirahətdir.

Əc, ey külək, bağır, ey bəhri-biaman, ləpələn!
Atıl cahana sən, ey ildırım, alış, parla!
Gurulda, taqi-səmavi, gurulda, çatla, dağıl!
Sön, ey günəş, yağışın yağdır, ey bulut, ağla!

Bunlar mənə əsər eylərmi? Mütləqa yox! Yox!
Fəqət ana! O müqəddəs adın qabağında
O pak bağrına bassın məni, desin lay-lay,
Təbəssüm oynadaraq titrəyən dodağında.

Bütün vücüdüm əsər, ruhum eyləyər pərvaz,
Uçar cəmalərə o aləmi-xəyalətdə.
Yatar, ölər bədənim, nitqdən düşər bir söz:
-Ana...Ana...Sənə mən rahibəm itaətdə!..



## NƏZAKƏT



**İlk iş günləri heç kim üçün asan olmur. Ali təhsilli mütəxəssis də, orta məktəb partası arxasından gələn gənc də çətinliklərlə rastlaşır. Həm də stansiyanın işi mürəkkəbdir. Yalnız seçdiyi sahəyə ürəkdən bağlananlar, dözümlülər aylar keçəndən sonra şəraitə, seçdiyi sahəyə uyğunlaşır, təcrübəli yoldaşlarından bilmədiklərini öyrənirlər.**

Nəzakət Məmmədova orta məktəbi 1987-ci ildə bu şəhərdə bitirib. Elə həmin ildə indiki Azərbaycan Dövlət Neft Akademiyasına daxil olub. 1992-ci ildə akademiyanın kimyatexnologiya fakültəsini (qeyri-üzvi maddələrin sintezi ixtisası üzrə) bitirib.

Ailə vəziyyəti ilə əlaqədar əmək fəaliyyətinə 1996-cı ildə başlayıb. Boru alətləri bazasında əməyin təşkili və əmək haqqı şöbəsində normalaşdırıcı mühəndis, sonra həmin şöbənin rəisi vəzifəsində çalışmışdır. Bu müəssisə fəaliyyətini dayandırdıqdan sonra Nəzakət xanım öz ixtisası üzrə işləmək qərarına gəlib. Bu məqsədlə də Əmək məşğulluğu mərkəzinin göndərişi ilə stansiyamıza göndərilib.

Əvvəlcə kimya sexində laborant kimi fəaliyyətə başladı. Bu sexin işgüzar kollektivi var. Sex əməkçiləri gecəni gündüzə qataraq vəzifə borcunu şərəflə yerinə yetirirlər. Əksəriyyəti qadınlardan ibarət olan bu kollektiv gənclərə də həssaslıqla, diqqətlə yanaşır, onlara lazımi köməklik göstərir. Bax, Nəzakət belə bir sexin üzvü olmuşdu.

Demirik ki, ilk günlər onun üçün asan oldu. İlk iş günlərində, ali təhsilli mütəxəssis olsa belə, çətinliklərlə rastlaşdı. Axı, ali təhsil almaq işin bir tərəfidir. Amma N.Məmmədovanın işə olan həvəsi, kollektiv üzvlərinin qayğısı, köməyi çətinlikləri arxada qoydu. O, tezliklə kollektivə qaynayıb qarışdı. Laborant kimi də vəzifə borcunu layiqincə yerinə yetirməyə başladı. Belələri haqqında deyirlər: gec gəlib tez öyrəndi. Müdiriyyət Nəzakət xanımın bacarığını, işgüzarlığını nəzərə aldı. 2008-ci ildə mühəndis vəzifəsinə keçirildi.

Yeni vəzifə yeni qayğı deməkdir. Lakin Nəzakət xanım bu vəzifənin də öhdəsindən bacarıqla gəldi. Neft Akademiyası kimi ali təhsil ocağında öyrəndiklərini istehsalata bacarıqla tətbiq edirdi.

Ötən il Cənub ES MMC-nin açılışı oldu. Yeni stansiyaya kadrlar yerləşdirilərkən müdiriyyət təcrübəli, işgüzar mühəndis Nəzakət Məmmədovanın namizədliyini irəli sürdü. Hazırda Nəzakət xanım yeni stansiyada növbə rəisi işləyir.

Yeni müəssisənin öz çətinlikləri var. Amma N. Məmmədova kimi işgüzar kadrlar vəzifə borclarını layiqincə yerinə yetirirlər. Gənclərə də əllərindən gələn köməyi əsirgəmirlər.

Çiyin yoldaşımız Nəzakət xanımın səmimi ailəsi var. Həyat yoldaşı Namiq Məmmədov da Azərbaycan Dövlət Neft Akademiyasını bitirib. Hazırda şəhərimizdəki Daşınmaz Əmlakın Dövlət Reyster xidmətində mühəndis işləyir.

Məmmədovlar ailəsinin 2 övladı var. Qızları Aytən Məmmədli Qafqaz Universitetinin ingilis dili-riyaziyyat fakültəsinə, oğlanları Xalid Məmmədli Azərbaycan Texniki Universitetin maşın mühəndisi fakültəsinə daxil olmuşlar. Hər ikisi III kurs tələbəsidir. Valideynləri kimi nümunəvidirlər.

Səmimi insan, qayğıkeş ana, bacarıqlı mühəndis Nəzakət Məmmədova yaxşı, səmərəli fəaliyyətinə görə müdiriyyət tərəfindən dəfələrlə təşəkkür almışdır.

Kollektivimiz adından Nəzakət xanımı və onun timsalında bütün qadınlarımızı 8 mart münasibətilə ürəkdən təbrik edirəm. Onlara cansağlığı, ailə səadəti arzulayıram.

**G.RZAYEV,**
**Şirvan İES MMC-də iqtisadiyyat şöbəsinin rəisi, «İşıq»ın ştatdankənar müxbiri**

İŞIQ
İctimai-siyasi qəzet
8 mart 2014-cü il

# VARLI ANA, BAL NƏNƏ, SEVİMLİ MÜƏLLİMƏ

**Azərbaycan təhsil sistemində neçə-neçə fədakar müəllim vətən övladlarının savadlanmasında, maariflənməsində, tərbiyə almasında misilsiz xidmətlər göstərmiş, müəllim adını, şərəfini, ləyaqətini həmişə uca tutmuşlar. Bu gün də müəllimin bilikli, millətsevər, vətənpərvər, müasir düşüncəli, azad ruhlu gənc nəslin yetişməsində rolu əvəzsizdir.**

Peşəsinin vurğunu olan, müəllim adıyla fəxr edən, dərs dediyi şagirdləri doğma övladları qədər sevən belə müəllimlərdən biri də İmamət Qurbanovadır. Kiçik yaşlarından müəllimə olmaq istəyən və bu gün də eyni coşğu və məhəbbətlə işləyən İmamət müəllimə 18 nömrəli tam orta məktəbdə kimya fənnini tədris edir.



İmamət Qurbanova 1949-cu ildə dağlar qoynunda yerləşən Qax rayonunda anadan olub. Füsunkar İlisu şəlaləsinin, ecaskar Sarıbaşın, qədim Sumuk qalanın, heyrətamiz meşələrin, acıqlı çayların mənzərəsində böyüyən, Qaxın dağlarının təmiz havasını udan, billur bulaqlarından su içən İmamət müəllimənin "ilk şagirdləri" də elə 6-7 yaşındaykən meyvə ağacları olub. Böyük həvəs və tükənməz enerji onu Azərbaycan Pedaqoji İnstituna gətirib. Elə ailə səadətini də orda tapıb. Həyat yoldaşı Bürcəli Qurbanovla birlikdə 15 il Şamaxı rayonunda kimya müəllimi işləyiblər. 1978-ci ildə Azərbaycan müəllimlərinin VI qurultayına nümayəndə seçilib. Artıq 44 ildir ki, xalqın övladlarına kimyanın sirlərini öyrədən bu müəllimlərin öz övladları da müxtəlif peşələrin sahibidirlər. Aybəniz APU-nun kimya-biologiya, Aygün ATU-nun pediatriya, Samirə BDU-nun jurnalistika, Ibrahim BDU-nun filologiya fakültələrini bitiriblər. Hamısı ailəlidirlər. Onun yeddi nəvəsi var. Nəvələri ona "Bal nənə" deyirlər. İmamət müəllimənin birinci nəvəsi Ömür Qurbanov builki ali məktəblərə qəbul imtahanlarında 631 bal toplayaraq Azərbaycan Dövlət Neft Akademiyasına qəbul olub.

İmamət Qurbanova öz şagirdləri tərəfindən bir insan və müəllim kimi sevilən xoşbəxt müəllimlərimizdəndir. Deyir ki, "xoşbəxt anayam, xoşbəxt nənəyəm, xoşbəxt müəlliməyəm. Böyük Allahımdan çox razıyam. Çox varlıyam. Mənim varım, dövlətim övladlarım, nəvələrim, şagirdlərimdir. Onların uğurlarını gördükcə ruhlanıram, düşünürəm ki, zəhmətim hədər getməyib."

Ağbirçək ana, təcrübəli müəllimə kimi yeni ailə quran gənclərə münasibətini soruşduq. Təəssüflə bildirdi ki, bəzi gənclərimiz ailə qurmağın məsuliyyətini dərk etmirlər. "Ailə isti ocaqdır, ocağı dağıdıb külü ilə oynamaq olmaz. Hər bir oğlan və qız səhv addım atarkən birinci növbədə məhkəmədən əvvəl ağsaqqal nəsihəti, ağbirçək öyüdü almalıdırlar. Ağılsız valideynlərə görə valideynsiz qalan uşaqların taleyinə biganə olmamalıyıq. Məhkəmələrdən bir xahişim var. Boşanan gənclərdən əvvəl onların valideynlərini dindirsinlər. Görək bu valideynlər övladları üçün hansı yolu düzgün hesab edirlər."

İmamət müəllimənin belə danışmağa haqqı catır. Ona görə ki, o, savadlı, tərbiyyəli, ailəcanlı övladlar böyüdüb. Ona görə ki, respublikamızın müxtəlif bölgələrinə səpələnən şagirdləri İmamət müəlliməni böyük məhəbbət və ehtiramla xatırlayırlar. Çünki o sədaqətli həyat yoldaşı, qayğıkeş ana, tələbkar müəllimə, sözün əcl mənasında yaxşı insandır.

8 Mart Beynəlxalq Qadınlar bayramı ərəfəsində İmamət müəllimənin timsalında şəhərimizin bütün ağbirçək müəllimələrini təbrik edir, onlara möhkəm can sağlığı arzulayırıq.

**Nurlan QƏDİMOV**

**8 mart Beynəlxalq Qadınlar Günü ərəfəsində uzun müddət bu müəssisədə enişli-yoxuşlu, mənalı, zəhmətkeş həyat yolu keçmiş bir qadın-bir ana haqqında yazmağı özümə borc bildim. O, 1984-cü ildə bu kollektivdə əmək fəaliyyətinə başlayıb. Bu xanımın ilk iş günlərini də yaxşı xatırlayıram. İstehsalatda ilk addımlar atan hər kəs kimi onun üçün də asan olmayıb. Amma çətinliklərdən qorxmayıb. Təcrübəli yoldaşlarından öyrənib.**

# BELƏ QADINLARLA FƏXR EDİRİK

Zəhmətsevərliyi ilə diqqəti cəlb edən Yekaterina Əzizova 2006-cı ildən Şirvan Yağ-Piy filialı adlanan bu müəssisədə kadr işləri üzrə baş mütəxəssisdir. İstehsalatın bütün sahələri üzrə işə qəbul olunanlar onunla görüşür, lazımi sənədləri hazırlayırlar. Təcrübəli Y.Əzizova məsləhətlərini də onlardan əsirgəmir. Adamları diqqətlə dinləmək qabiliyyəti, düzgün istiqamətləndirmək sahəsində təcrübəsi olan Yekaterina xanım hər kəsi səmimiyyətlə qarşılayır. Elə buna görə də müraciət edənlər ondan razı qalırlar.



Y.Əzizova fəal ictimaiyyətçidir. YAP-ın üzvü kimi müəssisənin və şəhərin ictimai həyatında yaxından iştirak edir.

Prezident, Milli Məclisə deputat, Bələdiyyə seçkilərində katib kimi seçki məntəqələrində vəzifə borcunu layiqincə yerinə yetirir. Obyektivlik, düzlük onun həyat amalıdır. Buna görə də Şirvan 46 saylı seçki dairəsində də, eləcə də seçicilər ondan razılıq edirlər.

Yekaterina səmimi anadır. 3 qız, 2 oğul anası övladlarının cəmiyyətə layiqli övlad kimi böyüməsi üçün əlindən gələni əsirgəmir. Böyük oğlu Vüqar Əzizov hərbiçidir. Polkovnik-leytenant rütbəsinə kimi yüksəlib. Milli ordunun zabiti adını şərəflə doğruldur. Ana övladları ilə fəxr edir. Nigaran dünyamızda bütün əsgər və zabitlərimizə, eyni zamanda oğluna da sağlamlıq, gümrahlıq arzulayır. Deyir ki, əsgərlərimizin tezliklə işğal altında inləyən torpaqlarımızı azad edəcəkləri günü səbirsizliklə gözləyir.

Biz 8 mart Beynəlxalq Qadınlar Günü münasibətilə Yekaterina xanımın timsalında bütün xanımlarımıza xoş arzularımızı çatdırırıq. Onlara bayramınız mübarək olsun, deyirik.

**Yaqus KƏRİMOV,**
**MKT İstehsalat Kommersiya MMC-nin Şirvan şəhər Yağ-Piy filialında təhlükəsizlik texnikası və əməyin mühafizəsi üzrə aparıcı mühəndis, «İŞIQ» ın ştatdankənar müxbiri**

# İSTEHSALAT TƏLİMİ USTASI

**Göyçək uşaqlıqdan təmiz, səliqəli geyinməyi xoşlayırdı. Paltar alınanda da ona asanlıqla bəyəndirmək olmazdı. Nəticədə ana çox vaxt qonşuluqdakı dərziyə müraciət edirdi. Dərzi qızın diqqətliliyini, tikilişlərə diqqət kəsildiyini duymamış deyildi. Anaya məsləhət bilmişdi ki, qızı böyüyən kimi mütləq onu dərzi yanına şagird versin.**

Məsələ burasında idi ki, Göyçək təkcə tikiş işinə deyil, toxumaya da xüsusi diqqət yetirirdi. Həm də bu hiss onda ötəri deyildi. Orta məktəbin son illərində artıq onun tikdiyi, toxuduğu paltarlar göz oxşayırdı. Xalça toxumağı da öyrənmişdi. Hətta bir neçə il Qazıməmməd xalça sexində xalçaçı da işlədi. İlmələrin sehirli aləmi onu özünə cəlb etmişdi. Sexdə qabaqcıl işçi, keyfiyyət ustası kimi tanınırdı.



Amma nədənsə dərzilik onu özünə daha çox cəlb edirdi. Elə buna görə də 1974-cü ildə Salyan şəhər 76 saylı Texniki peşə məktəbində işə düzəldi. İstehsalat təlimi ustası kimi fəaliyyət göstərdi. 1977-ci ildə iş yerini Şirvana dəyişdi. Buradakı peşə liseyində dərzilik peşəsinin sirlərini gənclərə həvəslə öyrətməyə başladı. O vaxtdan 40 ilə yaxın zaman keçir. Bu illər Göyçək xanıma təcrübə, adsan, ən əsası hörmət qazandırıb. Bu dövrdə o, Gəncədəki Yüngül Sənaye texnikumunda təhsil alıb. Texnik-texnoloq ixtisasına yiyələnib. 2010-cu ildə Azərbaycan Müəllimləri İnstitutunda ixtisasartırma kursunda oxuyub.

İstehsalat təlimi ustası Göyçək Kazımova 40 ilə yaxındır sevdiyi, ürəkdən bağlandığı dərzilik sənətini qızlarımıza həvəslə öyrədir.

Modelçi-dərzi ixtisasına yiyələnən gənclər bu qədim, gərəkli sənətin sirlərini Göyçək xanımdan öyrənirlər. Göyçək xanım söhbət zamanı dedi:

-Yaradan hər kəsə bir yerdən çörək qismət edir. Mən uşaqlıqdan dərzilik sənətinin vurğunu olmuşam. Əbəs yerə deməyiblər ki, gözəllik ondur, doqquzu dondur. Sadə, səliqəli, zövqlə geyinməyi hamı xoşlayır. Bahalı, qiymətli parçadan paltar tikdirmək şərt deyil. Sadə, səliqəli geyinmək insanı daha gözəl göstərir. Mən bu fikri həmişə dərzilik sənəti keçən qızlara aşılayıram. Onlara tövsiyə edirəm ki, sifariş verən xanımlara bunları izah edin. Sevinirəm ki, bu gün onlarla şagirdim səliqəli, keyfiyyətli işləri ilə müştərilər arasında hörmət qazanıb. Ayşən Rzayeva, Gülnar Məmmədova, Xalidə Xankişiyeva və başqaları əziyyətimi itirməyiblər. Bu gün onlar şəhərimizdə keyfiyyətli usta kimi ad qazanıblar.

G.Kazımova şəhər peşə liseyində istehsalat təlim ustasıdır. 35-ci qrupda dərzilik sənətinin sirlərini qızlara həvəslə öyrədir. Deyir ki, qızlar bu sənəti bəyənib bura cəliblər. Çalışıram ki, onlar bu sənətin sirlərinə kamil yiyələnsinlər. Qrupda istedadlı, işgüzar qızlar çoxdur. İnanıram ki, Gültəkin Əhmədova, Yetər Əbilova, Raziyyə Dadaşova bacarıqlı dərzi kimi yetişəcəklər.

Sonda Göyçək xanımı, eləcə də onun timsalında peşə məktəbinin xanımlarını, modelçi-dərzi peşəsinə yiyələnən qızları qadınlar bayramı münasibətilə təbrik edirik.

**F.RƏHİMOV**

# O GƏNCDİR, HƏM DƏ FƏALDIR

**Kollecimizdə minlərlə qız oxuyur. Haqqında yazmaq istədiyim bu qız da onlardan biridir. Onun adı Əfsanə, soyadı Qəmbərovadır.**



Əfsanə müəllim olmaq, məktəbdə dərs demək arzusundadır. O kollecdə keçirilən fənləri dərindən öyrənir, təlim və tərbiyənin, uşaq psixologiyasının sirlərinə bələd olmağa çalışır. Özünü gələcək bir müəllim, mütəxəssis kimi hazırlayır.

Kollecdə oxuduğu ilk gündən müəllimlərin sevimlisinə çevrilmişdir. İctimai-mədəni həyatda da çox böyük fəallıq göstərir, ona tapşırılan işin öhdəsindən vaxtında , ləyaqətlə gəlməyə çalışır. Əfsanə son illər kollecdə və şəhərimizdə keçirilən tədbirlərdə xüsusi fəallıq göstərir, gəncləri maraqlandıran problemlərdən danışır və bir gənc kimi öz mövqeyini bildirməyə çalışır. Onu fərqləndirən əsas keyfiyyət öz işinə məsuliyyətlə yanaşması, gənclərə çatdırmaq istədiyi məsələni dərindən bilməsi, onları mətnə baxmadan demək, söyləmək qabiliyyətidir.

Əfsanə Qəmbərova Şirvan Gənclər və İdman idarəsinin, YAP Şirvan şəhər gənclər təşkilatının da fəallarından biridir. O tez-tez şəhər gənclərinin yığıncaqlarında iştirak edir, xüsusi fəallıq göstərir.

Əfsanə mətbuatda da öz fikirlərini oxucularla bölüşməyi xoşlayır. Şəhərimizin «İşıq» qəzetində onun imzası ilə yazılan məqalələrdə gəncləri maraqlandıran bir sıra problemlərə toxunulur, fikir mübadiləsi aparılır.

Əfsanənin təhsil aldığı Şirvan Dövlət İqtisadiyyat və Humanitar Kollecinin şöbə müdiri Saniyə Rzayeva və ona dərs deyən müəllimlər də haqqında yüksək fikirdədir, dərslərə marağını və fəallığını xüsusi qeyd edirlər.

Biz hamımız çox sevimli, gözəl bir bayramı, 8 Mart Beynəlxalq Qadınlar Gününü qeyd edirik.

Qadınlarımıza, qızlarımıza ilin yalnız bir günündə deyil, əslində ilin bütün günlərində böyük sevgi, məhəbbət və qayğı göstərilməlidir. Çünki onlar buna layiqdirlər. Dünyada hər şey qadın iradəsi ilə müqayisədə çox adi görünür. Yüksək inkişaf etmiş cəmiyyət anlayışında qadının şərəf və ləyaqəti, ona münasibət, onun cəmiyyətdə mövqeyi aparıcı rol oynayır.

Bu gözəl bayram günündə mən fürsətdən istifadə edib kiçik yazımla Əfsanəni və onun timsalında bütün qadınlarımızı, qadın müəllimlərimizi, tələbə qızlarımızı sevimli, böyük bayram, 8 Mart Beynəlxalq Qadınlar Günü münasibətilə ürəkdən təbrik edir, onlara can sağlığı, sevgi, məhəbbət arzulayıram.

**Rasim XƏLİLOV,**
**Şirvan Dövlət İqtisadiyyat və Humanitar Kollecinin direktor müavini**

# QADINLAR SEMİNAR KEÇİRDİ

**İnsan Hüquqları və Qanunçuluğun Müdafiəsi İctimai Birliyi Şirvan şəhərində Finlandiya Xarici İşlər Nazirliyinin maliyyə dəstəyi ilə "BMT-nin 1325№-li qətnaməsinin lobbiçiliyi ilə Milli proqramın yaradılması" mövzusunda treninq-seminar keçirmişdir. Treninq-seminarın keçirilməsində əsas məqsəd qadınların BMT-nin 1325№-li qətnaməsi barəsində məlumatlandırılmasına, onlara qətnamə maddələrinin izahına və bu mövzuda müzakirələrin təşkilinə yönəlmişdir.**



Milli QHT Forumunun Şirvan Regional Mərkəzində keçirilən seminar- treninqdə şəhərin idarə və müəssisələrindən 20 nəfər fəal qadın iştirak etmişdir.

D.Əliyeva adına Qadın Hüquqlarının Müdafiəsi Cəmiyyətinin ekspert təlimçiləri Sevda Məmmədova və Nabat Qəniyeva layihə ilə bağlı qadınlara ətraflı məlumat vermişlər.

Treninq iştirakçıları qadınların münaqişələrin həlli və sülh prosesində qərar qəbul etmə səviyyəsində iştirakının gücləndirilməsinin, silahlı münaqişələrin bütün tərəflərini qadın və qızların hüquqları və müdafiəsi ilə bağlı tətbiq oluna bilən beynəlxalq hüquq normalarına diqqət yetirməsinin vacibliyini vurğulamışlar.

Şəhər qadınları 1325№-li qətnamənin ayrı-ayrı maddələrini müzakirə etmiş, treninqdə iştirak edən qadınlardan təşkil olunmuş qruplar gələcəkdə qətnaməyə əlavə olunmasını məqsədəuyğun hesab etdikləri təkliflər paketi hazırlamışlar.

# ZİYARƏTİN QƏBUL OLSUN



***Məşhəd və Kərbəla ziyarətlərində olmuş qaynım Vaqifin timsalında bütün ziyarətçilərə ithaf edirəm***

Müqəddəs yerləri ziyarət edib
Məşədi, Kərbəla oldun, a qardaş.
Yeddi günlük ayrılığa nə var ki,
Haramlardan çox uzaqsan, a qardaş.

Eşit sözlərimi olginən agah,
Üzünə nur verib o ziyarətgah.
Getdiyin o yerlər: Məşhəd, Kərbəla
İslam aləmində müqəddəs qala.

Əlində cənamaz,Məşhəd təsbehi
Oxuyursan həm Qurani, Yasini.
Qoy köməyin olsun o pərvərdigar
Səni də bir mömin bəndəsi sanar.

Nəslin sevimlisi, vüqarı, Vaqif,
Danışan dilimin şüarı, Vaqif.
O günü görüm ki, gedəsən Haca
Olasan çox yaxın bir də Allaha.

**Elmira ƏMƏNOVA,**
**16№-li tam orta məktəbin müəllimi**

# MAARİFLƏNDİRİCİ GÖRÜŞ



**Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi dövlətdin siyasətinin həyata keçirilməsi, radikal dini qrupların zərərsizləşdirilməsi, qeyri-ənənəvi təriqətlərin təbliğatının qarşısının alınması, milli-mənəvi dəyərlərin, vətənpərvərliyin təbliği məqsədilə şəhərimizdə din ictimaiyyəti ilə maarifləndirici görüş və Xocalı soyqırımının 22-ci ildönümü münasibətilə tədbir keçirmişdir.**

Tədbiri şəhər icra hakimiyyəti başçısının birinci müavini S.Abıyev açmışdır.

Şəhid xocalıların xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin I müavini Səyyad Salahlını salamlayan S.Abıyev 1992-ci il fevralın 25-dən 26-a keçən gecə erməni işğalçılarının 366-cı rus motoatıcı alayının köməyi ilə əsl soyqırımı törətdiklərini xatırlatdı. Dedi ki, XX əsrin sonunda baş vermiş Xocalı faciəsi təkcə Azərbaycan xalqına deyil, bütün bəşəriyyətə qarşı yönəlmiş ən ağır cinayətlərdən biridir. Ona görə də bu qanlı tarix heç vaxt unudulmamalıdır.

Xocalı şəhidlərinin ruhlarına dualar oxundu.

S.Abıyev sonra dedi ki, şəhərimizdə dövlət-din siyasəti uğurla həyata keçirilir. Milli-mənəvi dəyərlərin və vətənpərvərliyin təbliği məqsədi ilə Şirvanda lazımi işlər müvəffəqiyyətlə yerinə yetirilir.

Azərbaycan Respublikası Dini Qurumlarla iş üzrə Dövlət Komitəsi sədrinin I müavini, «Cəmiyyət və din» qəzetinin baş redaktoru Səyyad Salahlı dini icma sədrləri, din xadimləri və dindarlar qarşısında çıxış etdi.

S.Salahlı çıxışında dedi ki, ulu öndər Heydər Əliyevin siyasətini uğurla davam etdirən ölkə başçısı cənab İlham Əliyev milli-mənəvi dəyərlərin və vətənpərvərliyin inkişafı istiqamətində məqsədyönlü işlər aparır. Son illərdə respublikanın müxtəlif rayonlarında neçə-neçə məscidlər inşa olunmuş, bəzilərində əsaslı, cari təmir işləri aparılmışdır. Ölkəmizdə hər kəs Konstitusiyamızın ona verdiyi hüquqlar çərçivəsində din azadlığından da bəhrələnir. Bu sahədə heç kəsə qadağa yoxdur. Təəssüf ki, bundan sui istifadə edənlər də var. Bizdə radikal dini qruplara yer verilməməlidir. Qeyri-ənənəvi təriqətlərin təbliğatının da qarşısı alınmalıdır. Bu günki tədbirə toplaşan dindarlar islam dininin təbliği yolunda əllərindən gələni əsirgəməməlidirlər.

Sonra axund Əvəz Mehrəliyev, Hacı Teymur Nəsirov, Hacı Vasif və başqaları çıxış etdilər. Öz təkliflərini və xahişlərini söylədilər.

Tədbiri şəhər icra hakimiyyəti başçısının I müavini S.Abıyev yekunlaşdırdı.

**«İŞIQ»**

# ERKƏN NİKAH PROBLEMİ DƏYİRMİ MASADA

**Fevralın 19-da Dilarə Əliyeva adına Azərbaycan Qadın Hüquqlarının Müdafiə Cəmiyyətinin təşkilatçılığı ilə «Erkən nikah probleminin ictimailəşdirilməsi və bu problemin həlli üçün dövlət strukturları, vətəndaş cəmiyyəti və KİV-lərin birgə fəaliyyətinə nail olunması» adlı layihə çərçivəsində dəyirmi masa keçirildi.**

Tədbirdə şəhər icra hakimiyyətindən , təhsil , polis şöbələrindən, QHT-lərdən məsul şəxslər, KİV-lərdən, həmçinin ictimaiyyət nümayəndələri iştirak edirdilər.

Yığıncaq zamanı erkən nikah problemi və onun mənfi nəticələri barədə ictimaiyyətin məlumatlandırlması, erkən nikahla bağlı qəbul edilmiş qanunla tanışlıq və bu problemin çıxış yollarının tapılması üçün hüquq-mühafizə və məhkəmə orqanlarının icra strukturları, bələdiyyə, KİV və vətəndaş cəmiyyəti nümayəndələrinin birgə işi ilə bağlı məsələlərin zəruriliyi qeyd olundu.

Görüşdə Dilarə Əliyeva adına Azərbaycan Qadın Hüquqlarının Müdafiə Cəmiyyəti idarə heyətinin üzvü, layihənin koordinatoru Dilarə Əfəndiyeva çıxış etdi. Təəssüflə bildirdi ki, bölgələrdə hələ də erkən nikahlar mövcuddur. Bu problemin birgə səy nəticəsində aradan qaldırılmasının mümkünlüyünü söylədi.

Həmçinin adı çəkilən QHT-nin təlimçi məruzəçisi Nabat Qəniyevanın səslənməndirdiyi suallar ətrafında qeyd olundu ki, erkən nikahların mövcudluğu əsasən savadsızlığın və qədim adətənənələrə kor-koranə bağlılığın nəticəsidir. Bu da sonradan bir çox fəsadlar törədir, ailələrin dağılmasına, uşaqların mənəvi cəhətdən şikəst qalmasına gətirib çıxarır.



Tədbirdə erkən nikah problemi, onun mənfi nəticələri və problemdən çıxış yollarının tapılması haqqında müzakirələr aparıldı.

Layihə ilə bağlı rəy və təkliflər verildi.

**Nurlan QƏDİMOV**

**Respublika Prezidentinin «Regionların İnkişafına dair Dövlət Proqramı»na əsasən Şirvan şəhərində də təmirquruculuq işləri aparılır. Xiyabanlar, küçələr təmir edilir, binaların dam örtükləri, fasadları yenilənir, məhəlləlddaxili həyətlər yenidən qurulur.**

## Redaksiyaya məktub

# MİNNƏTDARLIQ

Bu dəyişikliklər hər bir Şirvanlının gözü qarşısında olduğu üçün çox söz deməyəcəyəm.

Mən sadəcə öz məhəlləmizdə - L-t İbrahimov küçəsi 12,14, 16 №-li binaların qarşısında yaradılan şəraitdən söz açmaq istəyirəm. Ötən il Azərbaycan Respublikasının Prezidenti seçkilərinə hazırlıq ərəfəsində bir qrup məhəllə sakini şəhər icra hakimiyyətinin başçısına məhəllənin xeyir-şər evinin təmir edilməsi ilə əlaqədar müraciət etdi. Məhəllədə yeni tipli istirahət guşəsi salınırdı. Xeyir-şər evi isə 1970-ci illərdən qalma tikili idi.

Şəhər icra hakimiyyəti başçısı M.T.Camalov gərgin iş rejiminə baxmayaraq, məhəllə nümayəndəsi, şəhər ağsaqqalı Hacı Əbülhəsən kişini hörmətlə qəbul etmiş və bu işdə hər bir köməklik etməyə söz vermişdi.

Bu gün biz öz məhəlləmizə baxanda sevinirik. Bu sevinci bizə bəxş edən şəhər icra hakimiyyətinin başçısı M.Camalov cənablarına, şəhər Bələdiyyəsinin sədri Ə.Babayevə və təmir işlərində cani-dildən çalışan fəhlələrə öz minnətdarlığımızı bildiririk.

İşinin çox olmasına baxmayaraq M.Camalov bu günlərdə, Şura üzvləri, hüquq-mühafizə orqanlarının rəhbərləri ilə birlikdə məhəllənin açılışına gəldi. Yeni nümunəvi məhəllənin və xeyir-şər yerinin açılışı münasibətilə təbrik etdi. Sonra sakinləri dinlədi, göstəriş və tövsiyələrini verdi.

Məhəllədəki xeyir-şər evi çox gözəl təmir edilmiş, yeni avadanlıqlarla təmin olunmuşdur. Xeyir-şər evi toy evlərindən gözəllikdə geri qalmır. Allah hər kəsin qapısına şadlıq qismət etsin. Lakin xeyir və şər qoşa qanaddır. İstəsək də, istəməsək də yaxınlarımızın məclislərini verməli oluruq.Bu zaman belə təmiz, səliqəli bir yerdə məclis keçirmək rahatlıq deməkdir.

Mən hələ 2005-ci il 30 iyun tarixli «İşıq» qəzetinə «Oyanışın mübarək, əziz şəhərim» adlı məqalə yazmışdım. Bu gün o məqaləni yazdığım üçün şadam. Çünki səhv etməmişəm. Şirvanda abadlıq-quruculuq işləri ildən ilə sürətlənir.

Təbiət Şirvan şəhərinin ərazisində də, təbii gözəlliyində də «xəsislik» etmişdir. Lakin əvəzində strateji əhəmiyyətli neft, qaz vermişdir. Bu gün şəhərimizin sakinləri neft, energetika və digər sahələrdə çalışanlardır.

Təbiətin «xəsisliyini» başçının təşkilatçılığı və istiqaməti ilə öz əllərimizlə salınan bağlar, xiyabanlar, parklarla gözəlləşdirmişik.

Qarşıdan yaz-yay ayları gəlir. Arzu edərdik ki, yay axşamları şəhərimizin kinoteatrları, bağları maraqlı tədbirlərlə, əyləncələrlə bəzənsin.

Məktəblilərimiz tətil vaxtlarını maraqlı, böyüklər isə istirahətlərini gözəl keçirmək imkanı qazansınlar. Biz də fəxrlə deyək: Bura bizim şəhərdir! Başçımız da bizim şəhərin öz Oğludur!

**Validə MƏMMƏDOVA,**
**20 nömrəli tam orta məktəbin rus dili müəllimi**

# QABAQCILLARDAN SÖZ DÜŞƏNDƏ

**«Müəllim vəzifəsi ona görə şərəflidir ki, o cəmiyyət üçün ən dəyərli, bilikli, zəkalı tərbiyəli vətəndaşlar hazırlayır»**

*Heydər Əliyev*
*ümummilli lider*

**Gülnaz müəllimə haqqında hazırladığım bu yazını haradan oxuduğumu unutduğum və bloknotumda qeyd etdiyim, aşağıdakı fikirlərlə başlayıram:**

«Müəllim ömrünü dağ çayına bənzədənlər yanılmamışlar. Başlanğıcını durna gözlü büllur bulaqlardan alan kiçik çay kəskin dağ aşrımlarından keçir, neçə-neçə bulaqlara qovuşur, gücünü qüdrətini artırır, nəhayət kükrəyir, coşur, təbiətə, insanlara sərinlik, saflıq gətirmək üçün daima irəliyə baş alıb gedir. Müəllim ömrü də məhz belədir. İlk təhsil illərindən zərrə-zərrə qazandığı, öyrəndiyi elmi bilikləri, gərgin axtarışları, yuxusuz gecələrin şahidi olan masa arxasındakı əməyi onu şagirdlərinə, çalışdığı kollektivə sevdirir.»



Şəhərimizdəki şəhid E.İmanov adına 10 nömrəli tam orta məktəbin ibtidai sinif müəllimi Gülnaz Mirzağa qızı Fərzəliyeva kimi.

Gülnaz müəllimə 1954-cü il yanvar ayının 3-də Bakının Mərdəkan qəsəbəsində anadan olub. Orta təhsilini Şirvan şəhər 2 nömrəli tam orta məktəbdə və hazırda çalışdığı 10 nömrəli tam orta məktəbdə alıb. Orta təhsilini başa vurduqdan sonra Əli Bayramlı Pedaqoji Məktəbinə daxil olmuş, 1976-cı ildə təhsilini başa vurmuşdur.

Gülnaz müəllimə 1980-cı ildən 10 nömrəli tam orta məktəbdə ibtidai sinif müəllimi işləyir. Gülnaz müəllimə şagirdlərlə işləməkdən zövq alan, işinə məsuliyyətlə yanaşan, işini yeni təlim metodunun tələbləri əsasında quran qabaqcıl pedaqoqlarımızdan biridir. Onun dərs dediyi şagirdlər keçirilən bilik yarışlarında, müxtəlif tədbirlərdə həmişə fəal iştirak edirlər.

Gülnaz Fərzəliyeva yaxşı işi ilə məktəb rəhbərliyinin, şagird və valideyinlərin hörmətini qazana bilmişdir.

Ötən dərs ilində onun dərs dediyi 4-cü sinifdə təhsil alan 27 şagirdin 6 nəfəri əla, 18 nəfəri isə dərs ilini 4 və 5 qiymətlərlə başa vurmuşdur.

Hazırda Gülnaz müəllimə 1-ci sinifdə dərs deyir. O, bütün qüvvə və bacarığını sərf edir ki, şagirdləri proqram materiallarını yaxşı mənimsəsinlər, təlim-tərbiyədə uğurlu nəticələr əldə etsinlər.

Gülnaz müəllimə mənimlə söhbət zamanı sinfin qabaqcıl şagirdlərindən Nihad Qarazadənin, Firuzə Həsənlinin, Jalə Hüseynlinin, İlahə Hüseynovanın, Vüsal Abbaslının, Elgün Mürşüdovun adlarını çəkməyi də unutmadı.

G. Fərzəliyevanın səmərəli pedaqoji fəaliyyəti məktəb rəhbərliyi tərəfindən təşəkkür və fəxri fərmanlarla qiymətləndirilmişdir.

Gülnaz müəllimə həm də qayğıkeş anadır. O, mərhum ömür-gün yoldaşı Novruz Əlyar oğlu Fərzəliyevlə 3 övlad böyüdüb tərbiyə etmişdir. 3 nəvənin nənəsi olan G.Fərzəliyevanın bu yaxınlarda 60 yaşı tamam oldu. Məktəb rəhbərliyi, müəllim yoldaşları, yaxınları bu yubiley münasibəti ilə onu təbrik etdilər. Biz də, gec olsa da, bu yubiley münasibəti və 8 Mart Beynəlxalq Qadınlar bayramı münasibəti ilə Gülnaz müəlliməni təbrik edir, ona uzun ömür, can sağlığı, şəxsi həyatında və pedaqoji fəaliyyətində yeni-yeni uğurlar arzu edirik.

**Alik RZAYEV,**
**Azərbaycan Jurnalistlər Birliyinin üzvü,**
**«İşıq»ın ştatdankənar müxbiri**

*Bizim veteran idmançılar*

# GÜLƏŞÇİ, MƏŞQÇİ, HAKİM, MÜƏLLİM

**Vaqif Cəfərovdan danışanda bu adları ona şamil etmək lazımdır. Çünki Vaqif müəllim yeniyetməlik çağlarında idmana həddsiz maraq göstərib. Yaxşı deyiblər ki, niyyətin hara, mənzilin ora... Güləşçi də olub. Məşqçi, hakim, müəllim kimi də uzun müddət fəaliyyət göstərib.**

Bu sətirlərin müəllifi də V.Cəfərovu döşək üzərinə çıxıb ən güclü pəhləvan hesab olunan rəqiblərinin kürəklərini yerə vurduğu anları da görüb. Dəqiq, qərəzsiz, obyektiv hakimliyinin şahidi də olub.

Vaqif müəllim təcrübəli məşqçi olub.Yetirmələri şəhərimizin, respublikamızın idman şərəfini şərəflə qoruyublar.

V.Cəfərov ali təhsilli fiziki tərbiyə müəllimidir. Bu vəzifənin də öhdəsindən layiqincə gəlib. Məncə Vaqif müəllimin bir adı da var: səmimi, təvazökar insan.

Əvəzsiz xidmətləri ilə şəhərimizə hörmət, nüfuz qazandıran şəxsdir. Vaqif Cəfərov haqqında yazı hazırlamaq həmişə mənim üçün «müşkül işə» çevrilib. Dəqiq desək, Vaqif müəllim hər dəfə «sonraya qalsın», -deyib məni fikrimdən daşındırmağa nail olub. Hətta «Əli Bayramlı idmançıları» kitabını yazanda da ondan lazımi faktları çətinliklə ala bildim.

Ötən il 70 illiyi təntənə ilə qeyd olunub. Amma mətbuat işçilərindən xəbərsiz... Bu günlərdə 5 mart Bədən Tərbiyəsi və İdman Günü ərəfəsində təsadüfən rastlaşdım...

Söz-sözü çəkdi. Yeniyetməlik illərimdən yaxından tanıdığım, uğurlarına həmişə sevindiyim Vaqif Cəfərov bu dəfə «geriyə çəkilməli» oldu. Yəni yazı hazırlamağıma etiraz edə bilmədi.

Vaqif Məmmədəli oğlu Cəfərov 1943-cü ildə keçmiş Əli Bayramlıda, indiki Şirvanda anadan olub. Yeniyetməlik çağlarından idmanın güləş növünə vurulub. O günləri xatırlayarkən deyir ki, pəhləvan deyəndə boylu-buxunlu, fiziki cəhətdən başqalarından kəskin şəkildə fərqlənən şəxslər gözlərim önünə gəlirdi. Mənsə bədəncə cılız idim. Bu fikir məndə 1957-ci ilə kimi davam etdi. Məhz həmin il mərhum məşqçi Abdulla Abdullayevin rəhbərlik etdiyi güləş bölməsinə yazılanda o məni bu fikirdən daşındırıb. Məşqçinin «pəhləvanda ürək olmalıdır, fiziki cəhətdən güclü olmağın əsas şərt deyil. Cəsarətin yoxdursa, məşqçinin öyrətdiklərinə kamil yiyələnməmisənsə, qələbədən danışmağa dəyməz», sözlərini diqqətlə dinləyib. Ürəklə, sonsuz həvəslə məşqlərə başlayıb...




Şəkildə: Vaqif Cəfərov (sağdan birinci)

Gərgin məşqlər, Abdulla müəllimin məsləhətləri bəhrəsini verib. Əvvəlcə respublika çempionatında II yerə çıxıb. 1960-cı illərdə «Məhsul» könüllü idman cəmiyyətinin ikiqat çempionu olub.

O, 1960-1962-ci illərdə Azərbaycanın yığma komandasının tərkibində SSRİ birinciliyində ölkəmizə qiymətli xallar qazandırmışdır. 1967-ci ildə sərbəst güləş üzrə böyüklər arasında keçirilən respublika birinciliyində bürünc medala layiq görülmüşdür.

Vaqif Cəfərov zəhmətkeş məşqçi kimi də fəaliyyət göstərib. Yetirmələrinin adlarını sadalasaq uzun bir siyahı alınar.

Amma burada bəzi məqamlara toxunmaya bilmərik. SSRİ birinciliyinin ikiqat qalibi, yeddi dəfə dünya çempionu Aleksandr Medvedyevin xatirəsinə həsr olunmuş beynəlxalq turnirin qalibi Rövşən Umudovun, Avropa və dünya çempionatlarının mükafatçıları Samir Əhmədovun, Elşad Cəfərovun və digər idmançıların hazırlanmasında Vaqif Cəfərovun əvəzsiz xidmətləri olmuşdur.

Qeyd edtik ki, Vaqif Cəfərov hakim kimi də fərqlənib.

1960-1994-cü illərdə sərbəst, yunan-Roma güləşi üzrə Azərbaycan birinciliklərinin hakimi, baş katibi olmuşdur. 1970-2004-cü illərdə sərbəst güləş üzrə SSRİ birinciliklərində, Ümumittifaq və beynəlxalq turnirlərdə Moskvada, Daşkənddə, Minskdə, Varşavada, İranda, Türkiyədə, Kiprdə, 1971-ci ildə Bakı şəhərində sərbəst güləş üzrə Azərbaycan-Yuqoslaviya yığma komandaları arasında keçirilən beynəlxalq yarışlara hakimlik etmişdir.

O, 2001-2004-cü illərdə Bakıda keçirilən sərbəst güləş üzrə Avropa və dünya kuboku yarışlarında Hakimlər Kollegiyasının tabeliyində fəaliyyət göstərmişdir.

Sərbəst güləş üzrə SSRİ idman ustası, Azərbaycanın əməkdar məşqçisi Vaqif Cəfərov uzun illər bədən tərbiyəsi və idman komitəsi yanında uşaq gənclər idman məktəbinin direktoru, təhsil şöbəsində idman metodisti, orta məktəblərdə fiziki tərbiyə müəllimi və 1983-94-cü illərdə şəhər bədən tərbiyəsi və idman komitəsinin sədri işləmişdir.

Ötən ilin son günlərində 10№-li tam orta məktəbin akt zalında Vaqif müəllimin 70 illik yubileyinə həsr olunmuş tədbir keçirildi.

Mərasimdə Gənclər və İdman Nazirliyinin əməkdaşı Aygün xanım, şəhər Təhsil şöbəsinin müdiri P.Nəbiyev, gənclər və idman idarəsinin rəisi A.Quliyev, veteran idmançılar, şəhər ictimaiyyətinin nümayəndələri iştirak edirdilər. Çıxış edənlər Vaqif müəllimin keçən şərəfli ömür yolundan, 50 illik idman fəaliyyətindən danışdılar. Onu təbrik edib, xoş, səmimi arzularını çatdırdılar.

Biz də veteran, adlı-sanlı idmançımıza, bacarıqlı idman mütəxəssisimizə cansağlığı, uğurlar arzulayırıq.

**F.RƏHİMOV**

# AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİ 2014-2015-Cİ TƏDRİS İLİ ÜÇÜN POLİS AKADEMİYASINA ƏYANİ TƏHSİL ÜZRƏ MÜDAVİMLƏRİN QƏBULUNU ELAN EDİR

**Azərbaycan Respublikası DİN-in Polis Akademiyasına qəbula namizədlər Azərbaycan dilini sərbəst bilən, boyu azı 165 sm (qızlar üçün 160 sm) çağırışçı kimi Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli idarə, şöbə və bölmələrində qeydiyyatda olan (qızlar istisna olmaqla), buraxılış siniflərində oxuyan və ya tam orta təhsilli 16 yaşdan 18 yaşadək Azərbaycan Respublikasının vətəndaşları sırasından seçilirlər.**

Abituriyentlər DİN-in xüsusi-həkim komissiyasında müayinədən, habelə fiziki hazırlıq və seçmə komissiyalarında nazirlik tərəfindən müəyyən edilmiş normativlər üzrə sınaqdan keçməlidirlər. (fiziki hazırlıq üzrə minimal normativlər oğlanlar üçün: turnikdə dartınma-6 dəfə, qaçış 100 metr məsafəyə-15 saniyə və 1000 metr məsafəyə- 4 dəqiqə, qollar üzərində bədənin döşəmədən qaldırılması- 18 dəfə, arxası üstə uzanmış halda döşəmədən bədənin qaldırılması-18 dəfə; qızlar üçün: arxası üstə uzanmış halda döşəmədən bədənin qaldırılması-18 dəfə, qaçış 100 metr məsafəyə-19 saniyə və 1000 metr məsafəyə-5 dəqiqə 30 saniyə).

Seçmə komissiyalarının vaxtı barədə məlumatlar Daxili İşlər Nazirliyinin www.mia.gov.az. İnternet saytında yerləşdiriləcəkdir.

Sınaq və müvafiq yoxlamalardan müvəffəqiyyətlə keçən abituriyentlərin siyahısı qəbul imtahanlarına buraxılmaları üçün Azərbaycan Respublikasının Tələbə Qəbulu üzrə Dövlət Komissiyasına göndərilir.

İmtahanlar test üsulu ilə 3-cü ixtisas qrupunun fənləri üzrə Azərbaycan və rus dillərində keçirilir.

Qəbul imtahanlarının keçirilməsi ilə bağlı bütün təşkilati tədbirlər, sənədləşdirmə, imtahanların vaxtı, yeri və digər şərtlər Azərbaycan Respublikasının Tələbə Qəbulu üzrə Dövlət Komissiyası tərəfindən müəyyən edilir və abituriyentlər bu məqsədlə Komissiyanın İnternet saytında və ya kütləvi informasiya vasitələrində verilən elanları izləməlidirlər.

DİN-in Polis Akademiyasına qəbul olunmuş abituriyentlər dövlət hesabına yataqxana, geyim forması, təqaüd və yeməklə təmin edilir, təhsil aldıqları müddətdə yataqxanada qalırlar. Akademiyada tədris Azərbaycan dilində aparılır, təhsil müddəti 5 ildir. Akademiya barədə ətraflı məlumat www.pa.edu.az. İnternet saytında yerləşdirilmişdir.

Məzunlara «hüquqşünas» ixtisası və «polis leytenantı» xüsusi rütbəsi verilməklə daxili işlər orqanlarında müvafiq vəzifələrə təyin edilirlər.

İkili vətəndaşlığı, digər dövlətlər qarşısında öhdəlikləri olan şəxslər, 2014-cü ilin aprel və iyul çağırışlarında hərbi xidmətə getməli olan çağırışçılar, din xadimləri, məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə fəaliyyət qabiliyyəti olmayan və ya məhdud fəaliyyət qabiliyyətli hesab edilmiş, cinayət törətdiyinə görə əvvəllər məhkum olunmuş, habelə barəsində cinayət işinin icraatına bəraətverici əsaslar olmadan xitam verilmiş, eləcə də «Azərbaycan Respublikası daxili işlər orqanlarında xidmət keçmə haqqında» Əsasnamə ilə müəyyən olunmuş digər şərtlərə uyğun gəlməyən abituriyentlər DİN-in Polis Akademiyasına qəbul edilmirlər.

DİN-in Polis Akademiyasına qəbul üçün namizədlər daimi qeydiyyatda olduqları ərazi üzrə polis idarə, şöbələrinə aşağıdakı sənədləri şəxsən təqdim etməlidirlər:

-şəxsiyyət vəsiqəsi və doğum haqqında şəhadətnamə (əsli və notariat qaydada təsdiq olunmuş surəti):

-təhsil müəssisəsinin buraxılış sinfində oxuması haqqında DİN-ə təqdim olunması üçün arayış və ya tam orta təhsil haqqında sənəd (attestat):

-yaşayış yeri üzrə tibb müəssisəsindən DİN-ə təqdim olunması üçün sağlamlıq haqqında arayış;

-ilkin hərbi qeydiyyata alınma haqqında vəsiqə (əsli və notariat qaydada təsdiq olunmuş surəti);

-oxuduğu təhsil müəssisəsi tərəfindən DİN-ə təqdim olunması üçün verilmiş xasiyyətnamə;

-9x12 sm ölçüdə 2 ədəd. 4x6 sm ölçüdə 4 ədəd fotoşəkil (papaqsız, rəngli, donuq kağızda).

Ərizə və sənədlərin qəbulu 2014-cü ilin mart ayının 01-dən aprel ayının 10-dək olan müddətdə (bazar və bayram günləri istisna olmaqla) hər gün saat 10:00-dan 17:00-dək həyata keçiriləcəkdir.

**Əlavə məlumat üçün əlaqə telefonları: (012) 454-12-78, (012) 590-97-76.**

# Şirvan şəhər İcra Hakimiyyəti 2014-cü il üçün bəzi xərc maddələri üzrə kotirovka sorğusu elan edir

### Aparat üzrə

1. Cari təmir
2. İnventarların alınması

### Məktəbəqədər təhsil üzrə

1.Dəftərxana və təsərrüfat mallarının alınması
2.İdarənin sair xərcləri
3.Yumşaq inventarların alınması
4.İnventarların alınması
5.Digər maşın və avadanlıqların alınması
6.Sosial mədəni və məişət təyinatlı obyektlərin əsaslı təmiri.

**Əlaqələndirici şəxs: S. Abıyev.**
**Telefon: 215-10-00**
**Şirvan şəhəri. M.Ə.Rəsulzadə pr-10.**

# TƏBRİK EDİRİK!



Bir neçə kitab müəllifi, həkim-seroloq, «İŞIQ»ın fəal yazarlarından biri Mahi Şıxəliyeva (Mahi Şəfəqli) 8 mart Beynəlxalq Qadınlar Günü ərəfəsində Azərbaycan Kütləvi İnformasiya Vasitələri İşçiləri Həmkarlar İttifaqı Rəyasət Heyətinin qərarı ilə «Araz» Ali Ədəbi Media Mükafatı laureatının Fəxri Diplomu ilə təltif olunub.

M.Şəfəqlini həm qadınlar bayramı, həm də Fəxri Diplom münasibətilə təbrik edir, ona yeni-yeni nailiyyətlər, möhkəm cansağlığı arzulayırıq.

**«İŞIQ»**

# FƏRQLƏNƏNLƏRƏ FƏXRİ FƏRMANLAR VERİLMİŞDİR

**Azərbaycanın Milli Qəhrəmanı Rəfael Həbibov adına 14 nömrəli tam orta məktəbdə riyaziyyat müəllimi Əlifağa Cəfərovun rəhbərliyi və təşkilatçılığı ilə 7-8-9-cu sinif şagirdləri arasında riyaziyyat fənni üzrə bilik yarışı keçirilmişdir.**

Maraqlı keçən bu yarışmada İbrahim Nəcəfli, Aysun İbrahimova 7-ci, Səbinə Əzimova 8-ci, Ruslan Məmmədov, Cəmil İbişov, Səadət Rəsulova 9-cu sinif şagirdləri arasında yüksək bilik yarışında yüksək nəticələr göstərmişlər.

Bilik yarışında fərqlənən şagirdlərə məktəb rəhbərliyi tərəfindən «fəxri fərman» və qiymətli hədiyyələr təqdim olunmuşdur.

**A. RZAYEV**

Baş redaktor: M.M.XƏLİLOV

Təsisçilər: Şirvan şəhər İcra Hakimiyyəti başçısının aparatı və "İşıq"qəzetinin jurnalist kollektivi

Müəllifin və redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər

Materiallar redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmişdir

Qəzet "OL"MKPT MMC-də ofset üsulu ilə çap olunmuşdur.

Telefonlarımız:
Baş redaktor: 6-06-60
Redaktor müavini: 6-19-18

Ünvanımız:
Şirvan şəhəri,
İ.İ.Qayıbov küçəsi 16,
Şəhadətnamə №161
İndeks: 66858
Tiraj: 1200